Azərbaycanın vergi xəbərləri

UOT 336.763.2

# Regional siyasətin dövlət tənzimlənməsi və aqrar sahənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri



**Qurbanova Təranə Hidayət qızı***
Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi* - regionların sosial-iqtisadi inkişafı istiqamətində aparılan islahatların əhəmiyyətinin təhlili və iqtisadi qiymətləndirilməsi;
*Tədqiqatın metodologiyası* - sistemli yanaşma, müqayisəli təhlil;
*Tədqiqatın nəticələri* - regionlarda sahibkarlıq mühitinin yaxşılaşdırılması;
*Tədqiqatın məhdudiyyətləri* - ayrı-ayrı regionların iqtisadi göstəriciləri əsasında daha geniş bazada araşdırma tələb edir;
*Tədqiqatın praktiki əhəmiyyəti* - regionlarda sahibkarlığın inkişafı və təkmilləşdirilməsi istiqamətində analitik mənbə kimi istifadə imkanlığı;
*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - regional siyasətin dövlət tənzimlənməsinin ayrı-ayrı meyarlar üzrə sistemli şəkildə təhlili.

**Açar sözlər:** *regional siyasət, dövlət tənzimlənməsi, sahibkarlıq, aqrar kredit.*

## 1. Giriş

Regional inkişaf siyasəti dövlətin sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu baxımdan regionlarında mövcud infrastrukturun inkişafı və yenidən qurulması, məşğulluğun təmin edilməsi, yeni zavod və müəssisələrin fəaliyyətə başlaması, kənd təsərrüfatına göstərilən qayğı, sahibkarlıq fəaliyyətinə və fermerlərə dövlət tərəfindən verilən dəstək, respublikada aparılan siyasi, iqtisadi və hüquqi islahatların bariz nümunəsidir.

* Bakı şəhəri, AZ 1152, Parlament prospekti, 1.
t_qurbanova@mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

Bu istiqamətdə respublikanın sosial-iqtisadi inkişafına və regionların kompleks inkişafına hədəflənmiş iri həcmli Dövlət Proqramlarını nəzərdə tutan fərmanlar imzalamışdır. Ardıcıl olaraq qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırır, aqrar sahə üzrə sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına əsas verir.

Bütün bunlar aktual əhəmiyyət daşıyır, regionların sosial-iqtisadi perspektivləri, kənd təsərrüfatı kimi mühüm sahənin inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına maliyyə dəstəyinin verilməsi istiqamətində dövlətin rolu elmi araşdırmalar tələb edir. Bundan irəli gələrək bizim təhlil predmetimizin də məqsədi regionlarda əhalinin sosial həyat səviyyəsinin yaxşılaşdırılmasına, aqrar sahədə səmərəliyin yüksəldilməsi istiqamətlərini və sahibkarlıq subyektlərinin inkişafına dövlət müdaxiləsinin əhəmiyyətini göstərmək təşkil edir.

## 2. Regional siyasət və regional sosial-iqtisadi inkişafın xüsusiyyətləri

Regional siyasəti sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissələrindən biri olmaqla bütövlükdə həmin siyasətin yerinə yetirilməsinə xidmət edir. Sosial-iqtisadi inkişaf siyasəti necədirsə, regional siyasət də ümumən elədir. Yəni, ölkə miqyasında qarşıya qoyulan vəzifələr region miqyasında da qarşıya qoyulur. Lakin sosial-iqtisadi inkişaf siyasətinin başqa tərkib hissələrindən (*məsələn, maliyyə, pul-kredit, ekoloji siyasət, sənaye siyasəti və s.*) fərqli olaraq regional siyasətin özünəməxsus xüsusiyyətləri var. Əsas xüsusiyyətlərdən biri regional siyasətin kompleks xarakter daşıması və qeyd etdiyimiz kimi bütövlükdə ölkənin sosial-iqtisadi inkişaf siyasətini region miqyasında əks etdirməsidir.

Regional iqtisadi inkişaf siyasətinin başlıca xüsusiyyətlərindən biri özəl sektorun, xüsusilə, kiçik sahibkarlığın hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə dövlət tərəfindən müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir.

Regional siyasətin həyata keçirilməsində mütləq hər regionun özünəməxsus coğrafi şəraiti və həmin regionun əhalisinin tarixən məşğul olduğu sahə nəzərə alınmalıdır. Çünki hər regionun əhalisi müxtəlif sahə üzrə ixtisaslaşmış və təkmilləşmişdir. Digər tərəfdən sosial-iqtisadi inkişaf siyasətinin hər hansı növünə nisbətən regional siyasət mürəkkəbdir. Regional siyasətin həyata keçirilməsinə həm ümumrespublika xarakterli amillər, həm də hər regionun konkret şəraitindən irəli gələn amillər təsir göstərir.

Regional siyasətin  müvəffəqiyyəti üçün prioritet sahələrin düzgün seçilməsi və inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsi vacib şərtlərdəndir. Məsələn, ölkədə və onun regionlarında sosial-iqtisadi inkişafda ədalətlilik və səmərəlilik prinsiplərinin real şəraitə uyğun olaraq əlaqələndirilməlidir. Eyni zamanda ölkə üçün

prioritet sahələrin inkişafının regionlarda prioritet təsərrüfat sahələrinin və infrastruktura sahələrinin inkişafı ilə nə dərəcədə düzgün əlaqələndirilməsi nəzərə alınmalıdır.

Regional siyasətin ədalətlilik prinsipi üzərində qurulması üçün hər bir regionda əhalinin maddi rifah və həyat səviyyəsinin vəziyyəti, o cümlədən ÜDM-in artım sürəti, adambaşına düşən səviyyəsi, istehsal və istehlak arasında bölgüsü, əmək haqqının, ictimai istehlak fondlarının gəlirlərin vəziyyəti və s. öyrənilməlidir. Belə ki, ədalətlilik regional siyasətin elə yanaşma formasını nəzərdə tutur ki, ölkədə eyni dövrdə nəzərdə tutulan ümumi rifaha çatmaq üçün bütün regionların əhalisi eyni imkana malik olmalıdır (*məşğulluğun təmin olunması, əmək haqqının səviyyəsi, sosial infrastruktur və s.*).

Buna görə də ədalətlilik məsələsi son illərdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin apardığı regional siyasətinin mühüm tərkib hissəsi olaraq çıxış edir. Bu istiqamətdə regional tədqiqatların gücləndirilməsinə daha ciddi ehtiyac yaranmaqdadır. Zəngin təbii sərvətlərə malik olan respublikamızın regionlarında istehsal səmərəliyinin təmin edilməsi düzgün struktur siyasətin aparılmasını tələb edir. Ona görə də regionlarda istehsalın strukturunda yerli imkanlardan səmərəli istifadə edilməsi baxımından sənaye ilə kənd təsərrüfatı, xüsusilə, kənd təsərrüfatı ilə emal sənayesi, real sektorla, qeyri-real sektor arasında, habelə ixtisaslaşmış sahələrlə köməkçi-xidmətedici sahələr arasında nisbət məsələsinə, sosial infrastrukturun hər bir regionun konkret şəraitinə uyğun olaraq inkişafı məsələsinə diqqət daha da artırılmalıdır.

Regional siyasətin strategiyasını həyata keçirmək üçün regionların maddi, əmək və maliyyə ehtiyatlarından xarici ölkələrin müvafiq potensialı ilə qarşılıqlı əlaqədə səmərəli istifadə etməklə onların ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, region əhalisinin həyat səviyyəsinin yüksəldilməsi, ölkə regionlarının xarici bazara çıxış imkanlarının genişlənməsi, birgə müəssisələr təşkilində xarici investisiyadan, elmi-texniki potensialdan daha geniş miqyasda istifadə olunmasına dövlət miqyasında qayğı göstərilməsi kimi məsələlər qarşıya məqsəd qoyulmalıdır.

Müasir dövrdə regional siyasət iqtisadi rayonların kompleks inkişafı, rayonun öz yerli məhsullara tələbatının ödənilməsinin optimal təmin edilməsi, ümumdövlət miqyasında milli iqtisadiyyatın mənafeyinin nəzərə alınması baxımından xammalın kompleks emalı və hazır məhsul istehsalının daha da genişləndirilməsini nəzərdə tutmalıdır [2, s. 114, 118].

### 3. Regional sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi

Sosial-iqtisadi məqsədlərə nail olunmasına istiqamətlənmiş qanunverici, icra və nəzarət xarakterli tədbirlər sistemi, iri həcmli dövlət proqramlarının həyata keçirilməsi iqtisadiyyatın dövlət tənzimlənməsini əhatə edir.

Müstəqil dövlət quruculuğu yolunu tutmuş respublikamızda bazar mexanizminin yaradılması, dünya birliyinə inteqrasiyası, ölkənin sosial-iqtisadi inkişafı üçün prioritet sayılan regionların inkişafında keyfiyyətcə yeni mühitin meydana gəlməsi ilə səciyyələndi.

2004-cü il 11 fevral tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» nəticəsində regionlarda infrastrukturun bərpası və inkişafı, yeni iş yerlərinin açılması, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir. Bu müddət ərzində regionların inkişafında mühüm rolu olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşaası, şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi mühüm layihələr başa çatdırılmış, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanmış və beləliklə Azərbaycan regionun mühüm iqtisadi güc mərkəzinə çevrilmişdir. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması məqsədilə 7-i regionlarda olmaqla, 9 müxtəlif tipli elektrik stansiyasının istismara verilmiş, Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuş, Lerik, Yardımlı rayonları və Füzuli rayonu Horadiz şəhəri ilk dəfə, Ağcabədi, Beyləqan rayonları, Ağdam rayonunun Quzanlı qəsəbəsi və s. rayonlar təbii qazla təmin olunmuşdur. Su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi məqsədilə dövlət investisiya xərcləri hesabına, eyni zamanda beynəlxalq maliyyə təşkilatlarını cəlb etməklə müvafiq layihələr, o cümlədən Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi reallaşmış, Gəncə və Şəki şəhərlərinin, Ağdaş və Göyçay şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin, kiçik şəhərlərin su təchizatı sisteminin yenidən qurulması ilə bağlı mühüm işlər görülmüş, uğurlu nəticələr əldə edilmişdir. Həmçinin Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalanmışdır. Ölkənin dinamik sosial-iqtisadi inkişafı dayanıqlı infrastrukturun, o cümlədən etibarlı nəqliyyat sisteminin inkişafını zəruri etmişdir. Belə ki, Naxçıvan, Gəncə, Zaqatala və Lənkəran hava limanları, Quba-İspik-Xınalıq, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Gəncə-Qazax, Hacıqabul-Kürdəmir, Biləsuvar-İran İslam Respublikasının dövlət sərhədi avtomobil yolları yenidən qurularaq istismara verilmişdir. Lənkəranda yeni dəniz limanının tikintisi davam etdirilir.

Başlanmış işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 14 aprel 2009-cu il təsdiq olunmuş «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» regionların mövcud potensialından daha səmərəli istifadə etməklə yerlərdə sənaye sahələrinin və kənd təsərrüfatının inkişafını sürətləndirmək, bu işdə sahibkarlara dəstək olmaq, əhalinin

yaşayış səviyyəsini yaxşılaşdırmaqla yoxsulluq probleminin həllinə nail olmaq kimi məsələləri nəzərdə tutur.

Regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, Bakı şəhərinin ətraf qəsəbələrini abadlaşdırmaq, onların resurslarından daha səmərəli istifadəni təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 fevral tarixli Sərəncamı ilə «Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı» təsdiq olunmuşdur.

Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyi aqrar bölmənin inkişafında mühüm rol oynayır. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsi kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir.

Dövlət başçısı 2007-ci il 6 mart tarixdə «Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında» Fərman imzalamışdır. Fərmanda ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, xarici kapitalın və qabaqcıl texnologiyaların cəlb olunması, sənayenin modernləşdirilməsi, sənaye məhsulları ixracının və bu əsasda valyuta daxil olmalarının stimullaşdırılması, rəqabət qabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq məqsədi ilə xüsusi iqtisadi zonaların yaradılmasının vacibliyi vurğulanırdı.

2009-cu il aprelin 14-də «Xüsusi İqtisadi Zonalar haqqında» qanun qəbul olundu. Qanun Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətləri tənzimləyir, həmin zonalarda sahibkarlıq fəaliyyətinin təşkili qaydalarını müəyyənləşdirir. Qanun layihəsinin ana xəttini ölkə iqtisadiyyatının davamlı inkişafı, ilk növbədə qeyri-neft sektoruna diqqətin artırılması, qloballaşan dünyada Azərbaycanın rəqabətə davamlı bir ölkə kimi tanınması təşkil edir.

Qeyd edək ki, müasir iqtisadi münasibətlər şəraitində regionların inkişafının dövlət tənzimlənməsinin özünəməxsusluğu məhz sahibkarlıq subyektlərinin müstəqilliyi və onların fəaliyyətinin dövlət tənzimlənməsi ilə səciyyələnir.

Dövlət başçısının 25 oktyabr 2007-ci ildə daha əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində verdiyi sərəncam demək olar ki, ölkədə sahibkarlıq, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımların bariz nümunəsidir. Sərəncamla sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi üzrə təşkili əvvəlki bürokratik əngəlləri xeyli aradan qaldırılmışdır.

Azərbaycan Respublikasında investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi, qeyri-neft sektorunun inkişafının və yeni iş yer-

lərinin yaradılmasının sürətləndirilməsi məqsədilə fiziki şəxslərin gəlirlərindən tutulan vergilərin dərəcələrinin maksimum həddi 30 faizə, mənfəət vergisinin dərəcəsi və sosial sığorta ayırmaları 22 faiz səviyyəsinə endirilmiş, vergilərin ümumi sayı 9-dək azaldılmış, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmişdir.

2005-2010-cu illərin nəticələrinin təhlili göstərir ki, bu dövrdə, ümumi iqtisadi inkişafla yanaşı, qeyri-neft sektorunda da davamlı inkişaf qeydə alınmış və qeyri-neft ÜDM-i nisbətən sabit artım tempinə malik olmuşdur.

Aşağıdakı qrafikdə Azərbaycanda 2005-2010-cu illər ərzində ÜDM-nin və qeyri-neft ÜDM-nin real artım templəri öz əksini tapmışdır.




*Mənbə: htpp:// www.economy.gov.az (İqtisadi İnkişaf Nazirliyinin internet saytı)*

**Qrafik. Azərbaycan Respublikasında 2005-2010-cu illərdə ÜDM-in dinamikası (%-lə)**

Dövlət başçısı 13 aprel 2010-cu il tarixində imzaladığı fərman istehlakçıların hüquqlarının qorunması məqsədilə aparılan yoxlamaların müasir standartlara uyğun olaraq tənzimlənməsi, aparılan yoxlamalar zamanı səlahiyyətlərindən sui-istifadə hallarının qarşısının alınması, şəffaflığın təmin edilməsi məqsədi daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli Sərəncamı ilə "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın məqsədi Bakı şəhərində və onun qəsəbələrində müasir tipli elektrik stansiyalarının, yolların, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşası, yenidən qurulması, qazla təmin edilməyən qəsəbələrinin qaz təchizatının bərpası, mövcud istilik məntəqələrinin bər-

pası, su və kanalizasiya sistemlərinin bərpası, özəl sektorda ixracın stimullaşdırılması və təşviqi, sahibkarlara kömək göstərilməsi, aqrar sektora xidmət edəcək və bazar prinsipləri əsasında fəaliyyət göstərəcək yeni strukturlara dəstək verilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması kimi tədbirlərin həyata keçirilməsidir.

Ölkəmizin regionlarında və paytaxt Bakı şəhərində infrastruktur layihələrinin yüksək tələblərə cavab verən səviyyədə həyata keçirilməsi ardıcıl xarakter almışdır. İndi Abşeronda, Bakıətrafı kəndlərdə möhtəşəm infrastruktur layihələri həyata keçirilir.

Xüsusi ilə qeyd olunmalıdır ki, Avropa Yayım İttifaqı tərəfindən təşkil olunan ən yaxşı mahnı üzrə builki televiziya müsabiqəsi Azərbaycan Respublikası təmsilçilərinin parlaq qələbəsi ilə başa çatmışdır. Müsabiqənin qaydalarına əsasən, qalib ölkə növbəti ildə yarışmanı keçirmək hüququnu qazanır. Ölkə prezidenti cənab İlham Əliyev Bakı şəhərində «Eurovision-2012» mahnı müsabiqəsinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə 19 may 2011-ci il tarixində Sərəncam imzalamışdır. Heç şübhəsiz ki, bu istiqamətdə potensial imkanlardan istifadə olunaraq standartlara cavab verən yeni infrastruktur layihələr uğurla həyata keçiriləcəkdir.

İqtisadiyyatımızın aqrar bölməsində təsərrüfat formalarının müxtəlifliyi, məhsulların bölüşdürülməsinin bazar prinsiplərinə keçilməsi, kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyəsi və ondan istifadə olunması haqqında qanunvericilik bazasının hazırlanması, qəbul edilməsi və zaman keçdikcə dəyişən şəraitə uyğun olaraq təkmilləşdirilməsi şübhəsiz ki, bu sahədə bütün işlərin yenidən qurulmasına, istehsalın səmərəliyinin yüksəlməsinə və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına özünün müsbət təsirini göstərəcəkdir.

Beləliklə, kəndin sosial inkişafına yeni prizmadan yanaşmaq lazımdır. Başqa sözlə, kəndə yalnız fəaliyyət göstərilən böyük ərazi kimi deyil, əhalinin böyük bir hissəsinin yaşadığı və öz əməklərini sərf etdikləri bir mühit kimi baxmaq lazımdır. Buna görə də, iqtisadiyyatın, əsasən qeyri-neft sektorlarının davamlı olaraq yüksək artım templəri ilə dinamik və tarazlı inkişafına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin ardıcıl və əlaqəli şəkildə həyata keçirilməsi məqsədi ilə 2008-2011-ci illər üçün «Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı» hazırlanmışdır. Çünki infrastruktur sahələrinin inkişafını təmin etmək, insan kapitalını davamlı inkişaf etdirmək və sosial təminatın gücləndirilməsi kimi amillər dövlət investisiya siyasətinin prioritetləridir.

Regionlara investisiya axınını daha da gücləndirmək, kənddə yaşayan əhali təkcə torpaqla deyil, digər fəaliyyət növləri ilə də məşğul ola bilməsinə zəmin yaradar. Onda kənddən şəhərə axın olmaz, özləri üçün münasib həyat şəraiti yaradar, şəhərlər «yükdən» azad olar. Bütün bu kimi məsələlərin həlli kənddə sahibkarlığın inkişaf etdirilməsinə, fermer təsərrüfatları üçün daha əlverişli şəraitin yaradılmasına, ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına imkan verər. Urbanizasiya mülayimləşər, hətta ruralizasiya (*şəhərdən kəndlərə axın*) baş verər.

## 4. Regional inkişaf istiqamətində kreditləşmənin tənzimlənməsinin yaxşılaşdırılması

Müasir dövrdə iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə bazar münasibətlərinin inkişafı, təkrar istehsalın təşkili və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi dövlətin pul-kredit siyasətindən asılıdır. Bu baxımdan aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin inkişafında kreditin rolu və əhəmiyyəti misilsizdir. Əksər xarici ölkələrdə olduğu kimi respublikamızda da kreditlərin verilməsi Kredit İttifaqının, Sahibkarlığa Kömək Milli Fondunun, «Aqrarkredit» Kredit Təşkilatının, digər kredit təşkilatlarının, kommersiya, ipoteka və xüsusi banklar, kənd təsərrüfatı məhsullarının təchizatı və satış firmaları vasitəsilə həyata keçirilir. Bu kimi maliyyə institutları kreditləşmə prosesində fəal iştirak edir və fermerlərin kreditləşməsində əsas mənbədirlər. Kredit təşkilatlarının sosial yönümlü faiz siyasəti aparması, onun kənddə böyük nüfuz qazanması və bu əsasda geniş əhatəli müştəri şəbəkəsi yaratmaqla, təşkilatın öz məqsədlərinə nail olması, yəni Azərbaycan kəndinin iqtisadiyyatı üçün etibarlı, sabit və keyfiyyətli kredit xidmətini təmin edən bir təşkilat kimi bərqərar olması, kənd iqtisadiyyatının iqtisadi inkişaf prosesinə hər tərəfli kömək göstərməsi ilə nəticələnəcəkdir [3].

Aqrar sahənin müasir texnikalarla, keyfiyyətli gübrələrlə və kimyəvi preparatlarla təmin olunması və bu məsələlərlə bağlı dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrasını sürətləndirmək məqsədilə, ölkə rəhbərinin 23 oktyabr 2004-cü il tarixli Fərmanı ilə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

Respublikada aqrar bölmənin geniş imkanlara malik olmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2004-cü ilin oktyabrında «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» və «Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncamlar imzalamışdır.

Regionlarda sahibkarların maliyyələşməsində müstəsna rolu olan «Aqrarkredit» Kredit Təşkilatı özünün 12 regional filialı (*Bakı, Naxçıvan, Xaçmaz, Lənkəran, Şəki, Ucar, Bərdə, Salyan, İmişli, Qazax, Gəncə və Şamaxı*) və 4 nümayəndəsi ilə (*Quba, Cəlilabad, İsmayıllı və Ağcabədi*) Azərbaycanın kənd yerlərinə kredit xidməti göstərir. 2004-cü ildən 01 iyul 2010-cu il tarixinədək kreditin orta məbləği 7,5 min manat təşkil edir. «Aqrarkredit» tərəfindən 4523 borcalana 36,4 mln. manat həcmində kredit verilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi kombayn, traktor, toxum səpən, şumlama və digər kənd təsərrüfatı texnikalarını alaraq, "Aqrarkredit"lə birlikdə ölkənin hər yerində öz dəyərinə və 4 illik ödəniş cədvəli ilə sahibkarlara lizinq qaydasında icarəyə vermişdir. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən 2005-ci ildən etibarən yeni alınmış texnikalar 6 il müddətinə icarəyə verilir.

Proqram başlanandan (*1998-ci ildən*) cəmi 773 texnika 307 müştəriyə icarəyə

verilmişdir. Texnikaların ümumi dəyəri 13,1 milyon manatdır. 01 iyul 2010-cu ilədək cəmi 8,7 milyon manat məbləğində icarə haqqı toplanaraq Nazirlər Kabineti tərəfindən idarə edilən Tərəfdaşlıq Fonduna köçürülmüşdür. İndi bu fonddan yeni texnikaların alınması üçün istifadə olunur. Bu layihə üzrə 01 iyul 2010-cu il vəziyyətinə ödəniş əmsalı 94,8% olmuşdur. Kreditlərin idarə olunmasında keçmiş TACIS Layihəsi vəsaitləri hesabına treyninqlər, habelə layihə ekspertlərinin iş yerindəki təlimləri müsbət rol oynamışdır.

«Aqrarkredit» Kredit Təşkilatı tərəfindən kənd yerlərində fəaliyyət göstərən fiziki şəxslərə verdiyi kreditlə 12 000-dən çox yeni iş yerləri açılmışdır [1].

Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədi ilə Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri hesabına son iki il ərzində müasir texnologiyaların tətbiqinə əsaslanan 112 layihə, o cümlədən, tutumu 85 min ton olan 25 müasir soyuducu anbar və 267 min tonluq 17 taxıl anbarı kompleksləri, illik istehsal gücü 60 milyon ədəd damazlıq yumurta, 16.9 milyon ədəd əmtəəlik yumurta və 15.9 min ton quş əti olan 12 quşçuluq təsərrüfatı, eləcə də 4650 başlıq 4 südlük istiqamətli müasir cins heyvandarlıq kompleksləri maliyyələşdirilib.

Sahibkarlığa Kömək Milli Fondu 2010-cu ildə iqtisadiyyatın müxtəlif sahələrinin stimullaşdırılması məqsədilə ət emalı, quru meyvə, inşaat sektorunda isə tikinti materialları istehsalı müəssisələrini, plastik məmulatlar və müxtəlif növ profillər istehsal edən 2 sənaye müəssisəsini, tikiş və 3 mebel fabrikini, mineral su istehsalı sahəsini, müasir qablaşdırılma məmulatları istehsalı müəssisəsini, kənd təsərrüfatında bağçılığın intensiv inkişafına dəstək vermək üçün illik istehsal gücü 318 min ədəd ting olan tingçilik təsərrüfatını maliyyələşdirib. Bu günə qədər sözügedən layihələrin 56-sı, o cümlədən, tutumu 41.5 min ton olan 15 soyuducu anbar, tutumu 139 min ton olan 13 taxıl anbarı, illik istehsal gücü 25 milyon ədəd damazlıq yumurta və 16,9 milyon. ədəd əmtəəlik yumurta olan 3 quşçuluq (broyler) təsərrüfatı, 450 başlıq südlük cins iribuynuzlu 1 heyvandarlıq kompleksi, illik 2.5 min ton faraş tərəvəz istehsal olunan 2 istixana, ildə 3 min ton üzüm və 1.2 min ton göbələk yetişdirilən 2 təsərrüfat, illik istehsal gücü 26.2 min ton konserv məhsulları və konsentrat olan 4 konserv müəssisəsi, illik istehsal gücü 2.8 milyon litr alkoqollu içkilər olan 2 emal müəssisəsi, illik istehsal gücü 5 min ton olan 1 süd emalı müəssisəsi, illik istehsal gücü 42 min kv. metr mərmər, 16 min ton dəmir-beton məhsulları, 3.7 min ton plastik məmulatlar olan 4 tikinti sənayesi müəssisəsi, ildə 5.2 min dəst mebel istehsal edən 1 mebel fabrikinin yaradılması üzrə layihələr başa çatdırılaraq istifadəyə verilib, 56 layihə üzrə tikinti işləri davam etdirilir ki, bunların 2011-ci ilin sonuna başa çatdırılacağı nəzərdə tutulur [6].

Respublikada həyata keçirilən səmərəli layihələrdən biri də «Niderland hökumətinin Azərbaycanda kartof toxumçuluğunun inkişafı və onun bazasının yaradılması» layihəsidir. Bölgənin Tovuz rayonunda 2 il müddətində həyata keçirilmişdir. Layi-

hənin maliyyə büdcəsi 1,452 milyon Niderland quldeni həcmində olmuşdur. Layihə çərçivəsində *esi pidue* kartof toxumu gətirilmiş və Tovuz rayonunda 30 hektar sahə ayrılmış, həmçinin becərmə üçün texnika gətirilmişdir. Demək olar ki, nəticə də Tovuz rayonu kartof istehsalında ölkənin ən çox kartof istehsal edən rayonu olmuşdur [4. s. 64].

Qeyd edək aqrar sahənin inkişaf etdiyi dövlətlərin təcrübəsinin ölkəmiz üçün xarakterik cəhətlərini öyrənmək və eyni zamanda onun səmərəli tətbiqinə nail olmaq zəruridir. Aparılan araşdırmalar göstərir ki, aqrar sektorda kredit alanların xüsusi çəkisi İngiltərədə və Almaniya Federativ Respublikasında 50%, Fransada 40%, İtaliya və Belçikada isə 30%-dən çoxdur.

Bəzi ölkələrdə məhz aqrar sahənin inkişafına kömək məqsədilə mövcud banklar fəaliyyət göstərir. Məsələn, Avropada ən güclü olan - Credit Agrisole bankı fəaliyyət göstərir. Onun sisteminə lizinq kompaniyaları, nəqliyyat, maddi-təchizat və digər təşkilatlar daxildir.

Rusiyada 2000-ci ildən «Rusiya Kənd təsərrüfatı bankı» fəaliyyət göstərir. Həmin bankın 100 faizi səhmləri dövlətə məxsusdur, kənd təsərrüfatına kreditlərin verilməsi üzrə Rusiyanın bank şəbəkəsində 2-ci yeri tutur. Hazırda Rusiyanın «Kənd təsərrüfatı bankı» və 2004-cü il 1 yanvar tarixindən Azərbaycanda fəaliyyət göstərən qeyri-bank kredit təşkilatı olan «Aqrar-kredit» arasında əməkdaşlıq yaradılır. Həmin bankların təcrübəsindən istifadə və onun əhəmiyyətli cəhətlərinin tətbiqi məqsədəuyğundur.

Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyi aqrar bölmənin inkişafında mühüm rol oynayır. «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50%-nin dövlət tərəfindən ödənilməsi kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir.

Regionlarda sosial-iqtisadi inkişafın digər zəruri cəhəti onunla səciyyələnir ki, region daxili mövcud təbii resurslar bilavasitə ixracata təsir etməklə, regiona gətirilən valyutanı artırır. Məhz təbii resurslardan, yeraltı sərvətlərin kəşfiyyatı, istehsalı, əməktutumlu və kapitaltutumlu sahə kimi investisiya gətirilməsinə imkan yaradır. Bu məqsədlə həmin təbii sərvətlərin bazarı artıq region çərçivəsindən çıxıb dünya ölkələri səviyyəsinə çıxmağa nail olur [5].

Təbii iqlim və meteoroloji şərait təsərrüfat fəaliyyətinin nəticələrinə, istehsalın riskli xarakter daşımasına çox böyük təsir göstərir. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı böyük kapital və enerji tutumlu sahə olduğuna görə investorların və sahibkarların diqqətini bir o qədər də özünə cəlb etmir. Bütün bu deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, kənd təsərrüfatında gedən sosial-iqtisadi proseslərin labüd olaraq dövlət tərəfindən tənzimlənməsi zəruriliyi meydana çıxır.

## 5. Regionlarda aqrar sahənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Aqrar bölmə hər bir ölkənin milli iqtisadiyyatının ən mühüm sahələrindən biridir. Odur ki, ayrı-ayrı ölkələrin iqtisadi inkişaf səviyyələrinə qiymət verərkən kənd təsərrüfatını səciyyələndirən göstəricilərdən də istifadə olunur.

Dövlətin aqrar siyasəti ölkənin sabit inkişaf edən və rəqabət qabiliyyətli, ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd və şəhər əhalisinin həyat səviyyəsi və sosial infrastrukturunun yaxşılaşmasına imkan verən kənd təsərrüfatının yaradılmasına yönəldilməlidir.

Təbii-iqtisadi şəraitin müxtəlifliyi ilə əlaqədar olaraq ayrı-ayrı regionlara münasibətdə və istehsalın səmərəli yerləşdirilməsində sosial-iqtisadi siyasətin formalaşmasına da fərqli yanaşmaq lazımdır. Hazırda, ölkəmizdə bir tərəfdən bazar münasibətlərinin, digər tərəfdən isə sahə və ərazi məqsədli proqramların həyata keçirilməsi əsasında onların tənzimlənməsi mexanizmlərinin təsiri ilə kənd təsərrüfatı sahələrinin yerləşdirilməsi və ixtisaslaşdırılmasından çox böyük dəyişikliklər baş verir.

Əgər söhbət aqrar sahədə sahibkarlığın inkişafından gedirsə, yenə də burada güzəştli kreditlərin artması, kənd yerlərində, dağ rayonlarında məşğulluğun təmin edilməsi, iş yerlərinin açılması üçün kreditlərin verilməsi, girov mexanizminin müəyyən qədər sadələşdirilməsi mütləq ön plana çəkilməlidir.

Regionlarda bankların fəaliyyəti az təmin edilərsə, bu da aqrar sektorda bazar mühitinin formalaşmasına öz mənfi təsirini göstərəcək. Buna görə də respublikanın pul-kredit sistemində baş verən mühüm struktur dəyişiklikləri regionlarda bank işinin yenidən qurulmasını, onların idarə edilməsinin yeni aspektdə təkmilləşdirilməsini zəruri etmişdir.

Xüsusən region şəraitində bank-maliyyə orqanları ilə kənd təsərrüfatı müəssisələri arasında qarşılıqlı münasibətlərə böyük əhəmiyyət verilməli və onun formalaşdırılmasında sahənin istehsal xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan bütün müəssisələrdə dövlətin kredit siyasəti başqa strukturlardan fərqli olmalıdır. Sadalanan xüsusiyyətlər nəzarətə alındıqda müəssisələrin maliyyə vəziyyətinin sabitləşməsinə və kreditdən istifadənin səmərəliliyinin yüksəlməsinə xidmət etməklə, kreditin vaxtında qaytarılmasına şərait yaranar. Bu da aqrar sahənin, ümumilikdə sosial-iqtisadi inkişafın və sahibkarlığın daha geniş vüsət almasına əlverişli şərait yaradar.

Hazırda kəndli sahibkarlara göstərilən yardımlar dövlətin və qeyri dövlət qurumlarının maliyyə vəziyyətinə əsaslanaraq müntəzəm şəkildə tənzimlənməsi məqsədəuyğundur. Yəni, vergi güzəştləri davam etdirilməli; güzəştli yanacaq və sürtgü materialları satışı təşkil edilməli; bilavasitə dövlət kreditləri və s. maliyyə yardımları, lizinq xidmətləri, ayrı-ayrı bankların məqsədli kreditləri davamlı olmalıdır.

Sahibkar öz fəaliyyətinin müsbət nəticəsinə nail olmaqdan ötrü iş prosesinin ilk mərhələsində o, maliyyə planlaşması üzərində dəqiqləşmələr aparmalıdır. Regionlarda fermerlərin bilik və təcrübəyə malik olmaları onları gələcəkdə risklərdən uzaq olmağa yönəldir. Belə olduqda, yəni, çəkilən xərclər, gəlir, amortizasiya ayırmaları, təsərrüfat fəaliyyətinə maliyyə vəsaitlərinin qoyuluşu, şəxsi xərclər, həmçinin debitor və kreditor borcların faktiki vəziyyətinin nəzarətdə saxlanması imkan verir ki, borc alınmış maliyyə vəsaitlərindən səmərəli və dəqiq istifadə olunsun. Bunun üçün təsərrüfatdaxili maliyyə resurslarının düzgün qiymətləndirilməsi də mühüm rol oynayır. Əks təqdirdə kreditor borclarının ödənişləri gecikir, faiz ödəmələri artır, hətta müflisləşməyə səbəb olur, təsərrüfatın maliyyə idarəçiliyindəki böhranı daha da dərinləşdirir.

Cədvəl 1-də respublikanın kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri əks olunur.

Ölkə başçısının sərəncamına əsasən regionlarda yeni tədarük-satış bazaları və saxlama anbarları istifadəyə verilmişdir. Həmçinin, ölkəmizin meyvə-tərəvəz məhsulları yetişdirilən əsas bölgələrindən olan Quba-Xaçmaz iqtisadi rayonunda soyuducu anbarların tikintisi Azərbaycanın ilboyu məhsul ixracına da imkan verəcəkdir. Məhsul üçün nəzərdə tutulmuş anbarlardan başqa gübrə və pestisid anbarının tikintisi də zəruridir. Bu məqsədlə Sabirabad rayonunun Qaratəpə kəndində ümumi tutumu 12 min ton olacaq regional əhəmiyyətli 3 gübrə və pestisid anbarının tikintisi başa çatmışdır. Anbarlar vasitəsilə gübrə və pestisidlərin saxlanılması, bölüşdürülməsi və çatdırılması həyata keçiriləcək. Yeni təchizat bazasının xidmətindən Sabirabadla yanaşı, bir sıra qonşu rayonların sahibkarları da faydalanmaq imkanı qazanıb. Gələcəkdə əlavə anbarların tikilməsinə diqqət artırılmalıdır.

Regionlarda digər vacib məsələ damazlıq və toxumçuluq sahəsindədir. Bu gün xarici ölkələrdən dövlət vəsaiti hesabına damazlıq heyvanlar və toxumlar alınır. Bu istiqamətdə büdcədən subsidiyalar verilir. Lakin xaricdən alınan damazlıq heyvanlar pərakəndə formada lazımi şəraiti olmayan xırda təsərrüfatlara verildiyindən bu heyvanlar arasında ölüm hallarına yol verilir. Buna görə də məhsuldarlığın artımında əsaslı dəyişikliyə maneə törədir. Damazlıq heyvanların yüksək peşəkarlıqla, yüksək şəraitdə idarə olunması damazlıq təsərrüfatların maddi-texniki və metodiki yardım göstərilməsinə böyük ehtiyac vardır.

Regionlarda ətraf şəhər və rayonlardan fermer təsərrüfatlarının, icra hakimiyyətləri orqanlarının nümayəndələrinin, yerli və beynəlxalq qurumların təmsilçilərinin iştirak ilə kənd təsərrüfatı sahələrini əhatə edən sərgilərin keçirilməsi, sahibkarların maarifləndirilməsi, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin genişləndirilməsi məqsədəuyğundur. Belə tədbirlərin keçirilməsi fermerlərə yeni texnologiyalarla tanış olmağa imkan yaradır, onları müasir metodlarla işləməyə həvəsləndirir. Bu kimi hallar biznes xidmətlərin təşkili səviyyəsinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

**Cədvəl 1.Azərbaycan Respublikasında 2000-2009-cu illərdə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı, vahid | 2158 | 1753 | 1863 | 1783 | 1715 | 1782 | 1733 | 2098 | 2258 | 2392 |
| Ondan ziyanla | 1132 | 626 | 541 | 452 | 294 | 203 | 214 | 212 | 199 | 213 |
| % | 52.5 | 35.7 | 29 | 25.4 | 17.1 | 11.4 | 12.3 | 10.1 | 8.8 | 8.9 |
| Ümumi gəlir (faktiki qiymətlərlə), min manat | 1118 | 4348 | 4936 | 5324 | 10490 | 14757 | 16543 | 36932 | 50101 | 67149 |
| Balans gəliri, min manat | -3315 | 189 | 40 | 95 | 2872 | 5892 | 6235 | 20000 | 27032 | 34396 |
| Bütün maliyyə-təsərrüfat fəaliyyəti üzrə rentabellik, % | -19.2 | 1 | 0.1 | 0.2 | 5.1 | 9.1 | 8.5 | 14.9 | 15.8 | 21.4 |
| Kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir, min.manat | -2515 | 220 | 425 | 450 | 2946 | 5872 | 6104 | 18832 | 25756 | 29089 |
| *o cümlədən:* | | | | | | | | | | |
| bitkiçilikdə | -616 | 1066 | 1170 | 1394 | 2151 | 2769 | 1864 | 3368 | 6775 | 4708 |
| heyvandarlıqda | -1753 | -633 | -846 | -757 | 835 | 3117 | 4147 | 15171 | 18571 | 24061 |
| Kənd təsərrüfatı məhsullarının rentabelliyi, % | -14.6 | 1.1 | 1.4 | 0.9 | 5.2 | 9 | 8.4 | 14 | 15 | 18.1 |
| *o cümlədən:* | | | | | | | | | | |
| bitkiçilikdə | -7 | 14.7 | 17.8 | 27.6 | 39.4 | 41.5 | 22.7 | 28.7 | 31 | 17.8 |
| heyvandarlıqda | -23.2 | -5.7 | -3.1 | -1.8 | 1.7 | 5.4 | 6.6 | 12.9 | 13.4 | 19.7 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. htpp://www.azstat.org*

## 6. Nəticə

Regional siyasətin dövlət tənzimlənməsi və aqrar sahənin səmərəliyinin yüksəldilməsi istiqamətinə aparılan tədqiqat işini ümumiləşdirərək alınan nəticələri aşağıdakı kimi xarakterizə etmək olar:

- mülkiyyət və sahibkarlıq münasibətləri üzrə tətbiq edilən yeni hüquqi-normativ aktların qəbul edilməsi, gömrük tariflərinin, dövlət qeydiyyatı, vergi qaydalarının sadələşdirilməsi, regionlarda sahibkarlığın geniş vüsət almasına müsbət təsir göstərər;
- regional siyasət üzrə aparılan islahatların, regionlarda kompleks inkişafa, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, infrastrukturun yaxşılaşmasına xidmət edən dövlət proqramlarının ardıcıl olaraq həyata keçirilməsi məqsədəuyğundur və prosesin hansı səviyyədə aparılmasına dövlət nəzarəti gücləndirilməlidir;
- regionlarda aqrar istehsalçıların maliyyə resurslarına olan ehtiyaclarının daha çevik və səmərəli şəkildə ödənilməsi üçün institusional təminat yaxşılaşdırılmalı, hazırda regionlarda fəaliyyət göstərən maliyyə təşkilatlarının fəaliyyətlərinin daha da gücləndirilməsi stimullaşdırılmalıdır;
- dövlət tənzimləyici funksiyasından istifadə etməklə banklar tərəfindən həyata keçirilən pul axınlarına, kredit müqavilələrinin şərtlərinə, vəsaitin borcalan tərəfindən təyinatı üzrə istifadəsinə daha səmərəli nəzarət mexanizmi tətbiq olunmalıdır;
- aqrar sahənin inkişaf etdiyi ölkələrin malik olduğu müqayisəli üstünlüklərin öyrənilib reallaşdırılmalı, həmçinin dünya biznes-nəhənglərinin təcrübəsindən istifadədə milli mənafelərə mənfi təsir göstərən amillərin qarşısının alınması üçün ardıcıl olaraq proqramlar hazırlanmalı və tədbirlər görülməlidir;
- regionların təsərrüfat subyektlərinin istehsal və ixrac həcmlərinin artırılması dövlət tərəfindən maliyyələşməlidir;
- qeyri-neft sektoruna investisiyaların daha çox cəlb olunması istiqamətində mütəmadi tədbirlər görülməli, xüsusən, istehsal xarakterli investisiyalar üçün şərait daha da yaxşılaşdırılmalıdır.

İqtisadi rayonların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərdən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialdan, ən əsası dövlətin dəstəyindən səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına nail olmaq mümkündür.

## İstifadə olunan ədəbiyyat:

1. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı. İllik hesabat (2009); http://www.aqrarkredit.az.
2. Nuriyev Ə. (2007) Regional İdarəetmənin əsasları. Bakı: Elm, 427 s.
3. Əhmədov İ. (2006) Kənd təsərrüfatının idarə edilməsi. Bakı: Elm, 473 s.

4. İbrahimov İ. (2007) Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı: Səda, 285 s. .
5. Qurbanzadə A. (2004) Aqrar strukturun regional inkişaf modeli Bakı: Elm, 432 s.
6. Sahibkarlığa Kömək Milli Fondu. http:// www.anfes.gov.az

**Курбанова Тарана Гидаят кызы**
Азербайджанский Научно-Исследовательский Институт Экономики и
Организации Сельского Хозяйства

## Государственное урегулирование региональной политики и направление повышение эффективности аграрного сектора

### Аннотация

*Цель исследования* - анализ значения последовательного провдения политических, социально-экономических и правовых реформ в направлении развития регионов.

*Методология исследования* - сравнительный анализ, системный подход.

*Выводы исследования* - формирование благоприятной предпринимательской среды, основанной на государственное урегулирование.

*Ограничения исследования* - требует исследования на более расширенной базе.

*Практическая значимость исследования* - решение вопросов повышения и совершенствования эффективности региональной политики, учитывающей развитие предпринимательства в регионах.

*Оригинальность и научная новизна исследования* - системный анализ государственного урегулирования региональной политики по отдельным критериям.

**Ключевые слова:** *региональная политика, государственное урегулирование, предпринимательство, аграрный кредит.*

**Tarana H. Qurbanova**
Dissertant Az. Scientifically Research İnstitute of Economy and Organization of Agriculture

## The state regulation of regional policy and the directions of increasing of efficiency in agrarian sector

### Abstract

*Purpose* - the analysis of importance of continuous implementation of political, socio-economical and legal reforms towards regional development;

*Design/methodology* - comparison, systematical approach;

*Findings* - the formation of attractive business sphere based on state regulation;

*Research limitations/implications* - demands wider-based research;

*Practical implications* - the solution of issues concerning the increase of efficiency and perfection of regional policy that takes into account a business development in regions;

*Originality/value* - a systematical different measured analysis of state regulation of regional policy;

**Keywords:** *regional policy, state regulation, business sphere, agrarian credit*

**JEL Classification Codes:** P25, R28, R52, R58.

Məqalə redaksiyaya daxil olmuşdur: 11.03.11.
Təkrar işləməyə göndərilmişdir: 31.03.11.
Çapa qəbul olunmuşdur: 23.06.11.